**Respublika ərazində fitosanitar vəziyyətin müəyyənləşdirilməsi məqsədilə aparılan monitorinqlər**

Saatlı rayonu, Azadkənd kəndində yerləşən “İD-Agropark” MMC-yə məxsus 365 ha meyvə bağında keçirilib. Bağda 320 ha ərazidə Mina Şirin sortu nar bitkisi kolları, 45 ha ərazidə isə badam bitkisinin müxtəlif sort ağacları əkilib. Zərərvericilərin vaxtında aşkar olunub qarşısının alınması məqsədilə sahədə feromonlu tutucu tələlər asılıb. Vizual baxış zamanı karantin tətbiq edilən zərərli orqanizmlərlə sirayətlənmə hallarına rast gəlinməyib.